İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA
MƏRKƏZİ

Sentyabr 2017

# AZƏRBAYCAN İQTİSADİ İSLAHATLAR İCMALI



# Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu



Azərbaycan Respublikası Prezidenti tərəfindən Azərbaycan Respublikasında sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinə dövlət dəstəyi ilə bağlı bir sıra tədbirlər haqqında 15 sentyabr 2017-ci il tarixli müvafiq Fərman imzalanmışdır.

Azərbaycan Respublikasında qeyri-neft sektorunu sürətlə inkişaf etdirmək, sahibkarlığın inkişafına əsaslanan, diversifikasiya olunmuş, rəqabətqabiliyyətli və dayanıqlı iqtisadi artımı təmin edən milli iqtisadiyyatın formalaşdırılmasına nail olmaq dövlətin iqtisadi siyasətinin başlıca hədəfidir. Son illər ölkədə aparılan uğurlu iqtisadi islahatlar nəticəsində bu sahədə bir sıra əhəmiyyətli nailiyyətlər əldə edilmiş, biznes və investisiya mühiti daha da yaxşılaşdırılmış, makroiqtisadi və maliyyə sabitliyi bərqərar edilmiş, ticarət balansında müsbət saldo bərpa olunmuş və valyuta ehtiyatları əhəmiyyətli miqdarda artmışdır.

Manatın sabitləşməsi, inflyasiyanın nəzarətə götürülməsi və strateji valyuta ehtiyatlarının artması, eyni zamanda, sahibkarların maliyyə resurslarına çıxışının yaxşılaşdırılmasını, real sektorla maliyyə sektoru arasındakı iqtisadi tarazlığın bərpa olunmasını, bankların dayanıqlılığının və real sektora maliyyə axınının gücləndirilməsini, bununla da əks-dollarlaşmanın stimullaşdırılmasını əsas vəzifələrdən biri kimi qarşıya qoymuşdur.

Qeyd olunan vəzifələrin icrası növbəti dövrlərdə də ölkədə məşğulluğun və qeyri-neft sektorunun hərtərəfli inkişafının təmin edilməsində sahibkarların rolunun yüksəldilməsi üçün mövcud istehsal və xidmət sahələrini müasirləşdirmək, genişləndirmək və səmərəliliyini artırmaq məqsədilə kredit resurslarına ehtiyacı olan kiçik və orta sahibkarların dövlət dəstəyi ilə daha geniş əhatə olunmasını zəruri edir. Xüsusilə investisiya layihələrində risklərin tərəflər arasında bölüşdürülməsi, girov təminatı tələbinin alternativ vasitələrlə əvəz edilməsi və beləliklə sahibkarların maliyyə resurslarına çıxışının yaxşılaşdırılması xüsusi aktuallıq kəsb edir.
Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyat perspektivi və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrində də maliyyə inklüzivliyinin artırılması, maliyyə xidmətlərinin çatdırılması kanallarının diversifikasiyası, sahibkarların, xüsusilə də kiçik və orta sahibkarların maliyyə mənbələrinə çıxış imkanlarının genişləndirilməsi və maliyyə xidmətləri ilə təminatının yaxşılaşdırılması əsas strateji hədəf və prioritetlərdən biri kimi müəyyən edilmişdir.

Qeyd edilənləri nəzərə alaraq, "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanının tətbiqi ilə əlaqədar sahibkarların maliyyə vəsaitlərinə çıxış imkanlarını artırmaq və bununla sahibkarlıq fəaliyyətini stimullaşdırmaq, maliyyə sahəsində risklərin bölüşdürülməsinə əsaslanan kreditləşdirmə sistemi formalaşdırmaq məqsədilə Azərbaycan Respublikası Prezidenti tərəfindən aşağıdakı tədbirlərin həyata keçirilməsi qərara alınmışdır:

1. "Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu" Açıq Səhmdar Cəmiyyəti yaradılması.

Sözügedən Fondun fəaliyyətini təmin etmək məqsədilə, eyni zamanda, Fərman çərçivəsində aşağıdakı müddəalar müəyyən edilmişdir:

2. Ümumi müddəalar
2.1. "Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra - Cəmiyyət) sahibkarların müvəkkil banklardan manatla aldıqları kreditlərə təminat verən və Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda və qaydada həmin kreditlərə hesablanmış faizlərin bir hissəsinə subsidiya verən hüquqi şəxsdir;
2.2. Cəmiyyətdə ictimai əsaslarla fəaliyyət göstərən və 7 nəfərdən ibarət Müşahidə Şurası, habelə Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi həyata keçirən İdarə Heyəti yaradılır;
2.3. Cəmiyyətin Müşahidə Şurası Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikası Maliyyə Nazirliyinin (1 nəfər), Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (1 nəfər), Azərbaycan Respublikası Mərkəzi Bankının (1 nəfər), Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının (1 nəfər), Azərbaycan Respublikası Dövlət Neft Fondunun (1 nəfər), Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (1 nəfər) və Azərbaycan Banklar Assosiasiyasının

(1 nəfər) nümayəndələrindən ibarət tərkibdə formalaşdırılır;
2.4. Müşahidə Şurasının üzvləri öz aralarından ardıcıl qaydada Müşahidə Şurasının sədrini seçirlər. Sədrin səlahiyyət müddəti 1 (bir) ildir və o, ardıcıllıq nəzərə alınmaqla növbəti müddətlərə yenidən seçilə bilər.

3. Cəmiyyətdə ümumi yığıncağın səlahiyyətlərinin həyata keçirilməsi prosesinin müvafiq müddəalar üzrə aşağıdakılara həvalə edilməsi də Fərman çərçivəsində öz əksini tapmışdır:
3.1. Azərbaycan Respublikasının Prezidentinə:
3.1.1. Cəmiyyətin nizamnaməsinin və strukturunun təsdiqi, nizamnamə kapitalının miqdarının müəyyən edilməsi;
3.1.2. Cəmiyyətin İdarə Heyətinin sədrinin və sədr müavininin vəzifəyə təyin və vəzifədən azad edilməsi, habelə onların səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;
3.1.3. Cəmiyyətin yenidən təşkili və ləğvi;
3.2. Cəmiyyətin Müşahidə Şurasına:
3.2.1. bu Fərmanın 3.1.2-ci yarımbəndi nəzərə alınmaqla, İdarə Heyəti sədrinin təqdimatı əsasında İdarə Heyətinin digər üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi, habelə onların səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;
3.3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:
3.3.1. bu Fərmanın 3.1-ci və 3.2-ci bəndlərində qeyd edilənlər, habelə Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə ümumi yığıncağın səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

4. Bu Fərmanın 5-ci hissəsində müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi üçün aşağıdakı tərkibdə İşçi qrupun yaradılması da Fərman çərçivəsində atılacaq addımlar arasında öz əksini tapmışdır və aşağıdakı şəkildə həyata keçirilməsi nəzərdə tutulmuşdur:

**İşçi qrupun rəhbəri**

Kamil Heydərov - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin Monetar və fiskal siyasət məsələləri sektorunun müdiri

**İşçi qrupun üzvləri**

Asif Qasımov - Azərbaycan Respublikasının Mərkəzi Bankının Tədqiqatlar departamentinin direktoru
Asim Zülfüqarov - Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Baş icraçı direktorunun müavini, Strateji xidmətlər departamentinin direktoru
Samir Hümbətov - Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun Sahibkarlığın inkişafı şöbəsinin müdiri
Xalid Əhədov - "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri
Cəlal Qasımov - "Kapital Bank" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri
Nuran Kərimov - "Deloitte & Touche" Məhdud Məsuliyyətli Auditor Cəmiyyətinin idarəedici partnyoru
Vüqar Əliyev - "KPMG Audit Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyətinin icraçı direktoru.

5. Yaradılmış işçi qrupu tərəfindən bir ay müddətində aşağıdakı tapşırıqların həyata keçirilməsi və Azərbaycan Respublikası Prezidentinə təqdim edilməsi də Fərman çərçivəsində öz əksini tapmaqdadır:
5.1. Cəmiyyətin nizamnaməsinin layihəsini, strukturu, o cümlədən nizamnamə kapitalının miqdarı barədə təkliflərini;
5.2. beynəlxalq təcrübə nəzərə alınmaqla:
5.2.1. sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminatın verilməsi qaydasının layihəsini;
5.2.2. sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə subsidiya verilməsi halları və qaydasının layihəsini;
5.3. risklərin azaldılması məqsədilə kredit reytinq sisteminin tətbiqini müəyyənləşdirən qaydanın layihəsini və digər risk menecmenti alətlərinin tətbiqinə dair təkliflərini;
5.4. Cəmiyyətin vəzifələrini həyata keçirməsi üçün zəruri olan digər normativ hüquqi aktlar, o cümlədən mövcud normativ hüquqi aktlarda dəyişikliklər barədə təkliflərini.

6. Bu Fərmanın 5-ci hissəsində müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi üçün İşçi qrup tərəfindən xarici və yerli ekspertlər cəlb edilə bilər.

7. Bu Fərmanın 5.2.1-ci yarımbəndinə uyğun olaraq hazırlanacaq qaydanın layihəsində, o

cümlədən aşağıdakı məsələlər öz əksini tapması da nəzərdə tutulmuşdur:

7.1. kredit təminatı məhsullarından faydalanacaq benefisiarlar (kiçik, orta və ya iri sahibkarlar, o cümlədən yeni fəaliyyətə başlayan sahibkarlar) və təminat veriləcək layihələrin iqtisadiyyatın hansı sektoruna aid olması;

7.2. təminat veriləcək kreditlərin maksimum dəyəri və müddəti;

7.3. Cəmiyyət, müvəkkil banklar və borcalanlar arasında risklərin bölünməsi mexanizmləri;

7.4. müvəkkil banklara verilən kredit təminatının maksimum limiti və bir müvəkkil bank üzrə limitin müəyyənləşdirilməsi mexanizmləri;

7.5. Cəmiyyət tərəfindən veriləcək təminatın kreditin dəyərinə münasibətdə maksimum nisbəti, habelə verilmiş təminatın kredit məbləğinə nisbətinin müəyyənləşdirilməsi mexanizmləri;

7.6. bir sahibkar üzrə verilən təminatın yuxarı həddinin müəyyənləşdirilməsi mexanizmləri;

7.7. Cəmiyyət tərəfindən təminat verilməsinə görə xidmət haqqının müəyyənləşdirilməsi mexanizmləri.

8. Eyni zamanda, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən aşağıdakı tədbirlərin həyata keçirilməsi Fərman çərçivəsində öz əksini tapmaqdadır:

8.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərin üç ay müddətində hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi;

8.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasının üç ay müddətində təmin edilərək Azərbaycan Respublikasının Prezidentinə məlumat verilməsi;

8.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlamaqla, bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat verilməsi;

8.4. Cəmiyyətin fəaliyyətinin təmin edilməsi məqsədilə üç ay müddətində onun müvafiq inzibati bina ilə təmin olunması üçün tədbirlərin görülməsi;

8.5. bu Fərmanın 6-cı hissəsində nəzərdə tutulmuş hallarda İşçi qrupun müraciəti əsasında maliyyələşdirmənin təmin edilməsi;

8.6. bu Fərmandan irəli gələn digər məsələlərin həll edilməsi.

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073

info@ereforms.org

(+994)12 5213318

/ iqtisadiislahat